
AZƏRBAYCAN

İSLAM MƏDƏNİYYƏTİ MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ

DİNİ-MƏNƏVİ DƏYƏRLƏRƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MÜNASİBƏTİ



Müasir Azərbaycan tarixinin yaradıcısı, dünya miqyaslı siyasətçi, Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli siyasi, ictimai və diplomatik fəaliyyəti istər siyasi, iqtisadi, sosial sahələrə, istərsə də, milli-mənəvi və mədəni mühitə təsirsiz ötüşməmişdir. Bu dahi şəxsiyyət sovet rejimi dövründən insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə görülmüş işlərə, materialist dünyagörüşünə əsaslanan əxlaqi tərbiyə sisteminin yaradılmasına qarşı yenidən hakimiyyətə qayıdış illərində köklü islahatlar nəticəsində dönüş yarada bilmiş, cəmiyyətin dinlə bağlı mürəkkəb və ziddiyyətli durumunun aradan qaldırılmasına nail olmuşdu. Belə ki, o, ilk növbədə din-dövlət münasibətlərində yaranmış uçurumu aradan götürmüş, qarşılıqlı inamı bərpa etmiş, dövlətin antidin, ateist siyasəti yeritməməsinə insanları inandırmış, dinin həqiqətən də milli-mənəvi dəyərlərdə yerini müəyyən etmişdi. Ümummilli Lider bütün sonrakı dövr ərzində bu vədinə əməl etmiş, dinin, dini təsisatların və etiqadların müasir Azərbaycan cəmiyyətində oynadıqları rola diqqətini azaltmamışdı. Bütün bu inkişafı öz məcrası ilə davam etdirərək müstəqil Azərbaycan Respublikasını multikultural mühitin tərkib hissəsinə çevirmişdi.

AZƏRBAYCANDA MULTİKULTURALİZM



Qeyd edilməlidir ki, Azərbaycan Respublikası Konstitusiyanın 48-ci maddəsinə əsasən, Azərbaycan dünyəvi dövlətdir və dini azadlığı təmin edir. Azərbaycanda müxtəlif dini konfessiyalar fəaliyyət göstərir. Ən geniş yayılmış din İslamdır ki, ölkədə yaşayan azərbaycanlıların 95%-i müsəlmandır.

Digər dini azlıqlar isə xristianlardır, onlar əhalinin 3,1%-ni təşkil edir. Xristianların əksəriyyəti rus pravoslav, gürcü pravoslav və erməni Qriqorian kilsəsinə məxsusdur (erməni Qriqorian kilsəsi Ermənistan tərəfindən işğal edilən Azərbaycan ərazilərində fəaldır). Digər xristian məzhəbləri Lüteranlıq, Baptizm və Molokanlardır. Yəhudilərin çoxu dağ yəhudiləri və əşkinazi yəhudiləridir. Azərbaycanda Bəhailik, Hare Krişna və Yehovanın Şahidləri icmaları, eləcə də digər dini icmalar fəaliyyət göstərir.

Bütün bunlar Azərbaycan Respublikasının tolerantlıq nümunəsi olmasının, ölkəmizdə multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasının bariz nümunələridir.

“Multikulturalizm ili” elan etmək və onu ləyaqətlə sona çatdırmaq bir daha bizim siyasətimizi, gücümüzü, niyyətimizi göstərir”.

İlham ƏLİYEV

Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir.




Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının göstəricisidir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir. Təsadüfi deyil ki, 11 yanvar 2016-cı il tarixdə 2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında dövlət başçısı cənab İlham Əliyev tərəfindən sərəncam imzalanmışdır.

AZƏRBAYCANDA İSLAM

Qeyd olunduğu kimi, Azərbaycanda yaşayan əhalinin əksəriyyəti İslam dininə sitayiş edən insanlardır və Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur.

743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir. Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid



fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin İslam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir. Bakıdakı Heydər məscidi Qafqazın ən böyük məscidi hesab olunur və məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənmişdir. Ornamentlərin zənginliyi məscidin fasadının arxitekturasında xüsusi harmoniya yaratmışdır və inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınmışdır. Burada 95 metr hündürlüyündə 4 minarə inşa olunmuşdur. Dövlət başçısı, zati-aliləri İlham Əliyev məscidin tikintisini daim diqqət mərkəzində saxlamış, burada həyata



keçirilən inşaat işlərinin gedişi ilə yaxından maraqlanmış, mütəmadi olaraq buraya gələrək görülən işlərlə bağlı müvafiq tapşırıqlarını vermişdir. İlham Əliyev həmin məscidin açılışında iştirak etməklə geniş nitq söyləmişdir.

Azərbaycan öz tarixi müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyev məscidin yenidən tikilməsi barədə sərəncam imzalamış və 1997-ci il iyulun 23-də, Bibiheybət məscidinin tikintisinə başlanılmış, cəmi bir il sonra isə bərpa və tikinti işləri başa çatdırılmışdır. Bu möhtəşəm ziyarətgah kompleks Prezident İlham Əliyevin və Şeyxülislam Allahşükür Paşazadənin iştirakı ilə açılıb dindarların ixtiyarına verilmiş, Bakı isə daha bir gözəl memarlıq abidəsinə sahib olmuşdur.

İslam birliyinin üzvü kimi Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır.

2017-ci İL – İSLAM HƏMRƏYLİYİ İLİDİR!

Möhtərəm Prezident, cənab İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamı ilə 2017-ci il Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilmişdir.

Bundan irəli gələrək Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi İli" elan edilməsinə dair tədbirlər planı qəbul edilmişdir. Dövlət başçısının sərəncamına uyğun olaraq "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası" mövzusunda beynəlxalq konfrans, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, "Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda "dəyirmi masa" keçirilmiş, ölkə rəhbərliyinin iştirakı ilə bir sıra xarici dövlət rəsmiləri ilə görüşlər keçirilmiş, habelə Azərbaycan Milli Kitabxanasında "Qədim tarixi Quran kitabları" sərgisi açılmış, 4-6 may tarixlərində Bakıda keçirilən IV Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində konsertlər təşkil edilmiş, UNESCO tərəfindən nəşr edilən "İslam mədəniyyətinin fərqli aspektləri" kitabının təqdimatı olmuşdur.

Belə ki, cari ilin aprel ayının 12-də Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfrans çərçivəsində Prezident cənab İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsinin çox mühüm hadisə olması və bunun böyük siyasi, iqtisadi, mənəvi və ideoloji əhəmiyyətinin olduğu vurğulanmış, onun bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verəcəyi, sülhə, əmin-amanlığa nail olmaq üçün İslam həmrəyliyinin bizim üçün yol xəritəsi olması kimi fikirlər səsləndirilmişdir.

"İslam Həmrəyliyi İli" ilə əlaqədar olaraq 2017-ci ilin mart ayının 16-da Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar" mövzusunda V Qlobal Bakı Forumunun rəsmi açılışı olmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, habelə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyeva Foru-



mun açılış mərasimində iştirak etmişlər. Dövlət başçısı tədbirdə geniş nitq söyləməklə qeyd edilən Forumun əhəmiyyəti barədə öz dəyərli fikirlərini səsləndirmişdir. Forumda 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər iştirak etmişlər.

Qeyd edilənlərlə yanaşı, İslam ili çərçivəsində 05 may 2017-ci il tarixdə UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESCO-nun tərəfdaşlığı ilə Bakıda "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı olmuş və Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər. Dövlətimizin başçısı Forumun açılış mərasimində nitq söyləmişdir.

Həmin Dialoq Forumu çərçivəsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə "Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda "dəyirmi masa" təşkil olunmuşdur. "Dəyirmi masa"da çıxış edən Mehriban xanım Əliyeva təhsil sisteminin inkişafının hər bir dövlət üçün, hər bir ölkənin gələcəyi üçün ən vacib məsələ olduğunu, Azərbaycanda müstəqillik bərpa olunandan sonra təhsil sahəsinə diqqətin ən prioritet istiqamətlərdən biri olmasını qeyd etmiş, dünyanın aparıcı ölkələrinin təcrübəsinin öl-



kəmiz tərəfindən öyrənildiyini və beynəlxalq təşkilatlarla bu sahədə fəal işləməyə hazır olduğumuzu bildirmişdir. "Dəyirmi masa"da iştirak edən UNESCO-nun baş direktoru xanım İrina Bokova, Efiopiyanın birinci xanımı Roman Tesfaye, Malinin birinci xanımı Keita Aminata Maiqa, İordaniya şahzadəsi Dana Firas qızlara təhsil verilməsinin əhəmiyyəti barədə çıxış etmişlər. Görüş zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlərdən söhbət açılmış, Fond tərəfindən Pakistanda qızlar üçün məktəbin yenidən qurulması yüksək dəyərləndirilmişdir.

"İslam Həmrəyliyi İli" çərçivəsində Prezident, cənab İlham Əliyev ölkəmizdə səfərdə olan Mali Respublikasının Prezidenti İbrahim Boubakar Keita ilə görüşmüş, görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi xüsusi vurğulanmışdır. Ölkələrimiz arasında siyasi əlaqələrin səviyyəsindən məmnunluq ifadə edilmiş və iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsinin önəmi qeyd olunmuşdur. Azərbaycanın sürətli inkişafından məmnunluğunu ifadə edən Mali Prezidenti Bakının dünyada mədəniyyətlərarası dialoq mərkəzinə çevrildiyini vurğulamışdır.

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev 21 may 2017-ci ildə Ər-Riyadda keçirilən Ərəb-İslam-Amerika Sammitində iştirak etmiş və iki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Sammitin keçirildiyi Kral Əbdüləziz Beynəlxalq Konfrans

Mərkəzində ölkəmizdən olan ali qonaq kimi dövlət başçısı, zati-aliləri İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılamışdır.

Bundan başqa, 23 may 2017-ci il tarixdə Prezident cənab İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Şeyx Abdullah bin Zayed Al Nahyanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Şeyx Abdullah bin Zayed Al Nahyanla keçirdiyi son görüşü məmnunluqla xatırlayan Prezident, zati-aliləri İlham Əliyev bildirmişdir ki, ötən müddət ərzində ölkələrimiz dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində böyük inkişafa nail olub. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin yüksək səviyyədə və dinamik inkişafda olduğunu deyən dövlətimizin başçısı siyasi, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın çox yaxşı istiqamətdə inkişaf etdiyini vurğulamışdır.

Qeyd edilməlidir ki, "İslam Həmrəyliyi İli" çərçivəsində həm Azərbaycanda, həm də Azərbaycandan kənarda müxtəlif tədbirlər həyata keçiriləcəkdir. Həmin tədbirlər planında bütün sahələr nəzərdə tutulur və İslam Həmrəyliyi bütün istiqamətləri əhatə edəcəkdir. Eyni zamanda ayrı-ayrı İslam ölkələri arasında İslam təşkilatları, İslam qurumları çərçivəsində fəaliyyəti, o cümlədən İslam adı altında yaradılan radikal qruplara qarşı birgə mübarizənin Koordinasiya olunması kimi məsələlər burada öz əksini tapacaqdır. Ən mühüm tədbirlərin ilkini isə İSESCO, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilməsi nəzərdə tutulan tədbirlər, habelə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanların 3-cü iclasıdır.



IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI

IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar şübhəsiz ki, ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratmışdır. Uğurla başa çatmış ilk Avropa Oyunlarının ardınca eyni məkanda növbəti İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışın keçirilməsinə qərar verilməsi Azərbaycan Respublikasının tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olmaqla yanaşı, onun idman şöhrətinin artmasına, beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsinə zəmin yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 18 sentyabr 2015-ci il tarixli 1413 nömrəli Sərəncamı ilə IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın sədrliyi ilə Təşkilat Komitəsi yaradılmış və Mehriban xanım Əliyevanın rəhbərliyi altında IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsinə dair xüsusi tədbirlər planı hazırlanaraq bundan irəli gələn zəruri təşkilati tədbirlər həyata keçirilmişdir.




Bakı Olimpiya Stadionunda baş tutmuş IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimində möhtərəm Prezident cənab İlham Əliyev, Birinci vitse-prezident, birinci xanım, "Bakı-2017" İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin və digər rəsmi şəxslər iştirak etmişlər. Bakının 16 idman arenasının hər biri yarışlara



yüksək səviyyədə hazırlanmış və digər zəruri təşkilati tədbirlər həyata keçirilmişdir. Azərbaycanın ev sahibi olduğu İslam Həmrəyliyi Oyunlarında 54 ölkədən 3 mindən çox idmançı, 1000-dən çox komanda rəsmiləri və bir o qədər də texniki nümayəndə iştirak etmişdir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Çünki bu vaxtadək İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmamışdır. İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparmışlar. Azərbaycanı bu Oyunlarda 425 atlet təmsil etmişdir. Qaliblərə ümumilikdə 1600 medal təqdim edilmişdir.

IV İslam Həmrəyliyi Oyunlarını 50-dən çox ölkədə 1 milyarddan çox tamaşaçının izləyəcəyi gözlənildiyi kimi baş vermişdir. Yarışları işıqlandırmaq üçün 1000-dən çox media nümayəndəsi akkreditasiyadan keçmiş və AzərTAc Oyunların rəsmi media tərəfdaşı olmuşdur. "Bakı-2017"nin işıqlandırılmasına agentliyin 70-dən çox əməkdaşı cəlb olunmuşdur. Oyunların proqramına daxil edilmiş 165 idman yarışı üçün 500 mindən çox bilet satışa çıxarılmışdır. Oyunların su səyahətinin, təntənəli açılış və bağlanış mərasimlərinin təşkilinə 31 ölkədən 5 mindən çox mütəxəssis cəlb olunmuşdur. "Bakı-2017"nin 24 beynəlxalq və 17 yerli səfiri, 8 yerli və 5 beynəlxalq sponsoru var. Rəsmi talis-





manlar – “İncə” və “Cəsur” Azərbaycanın milli sərvəti olan Qarabağ atlarının rəmzləri olmuşdur.

Müsəlman ölkələri üçün ən gözlənilən hadisənin – IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi Birləşmiş Ərəb Əmirlikləri, Misir, Səudiyyə Ərəbistanı, Qətər və başqa müsəlman ölkələrinin aparıcı KİV-ləri tərəfindən geniş işıqlandırılmışdır. Ərəb KİV-ləri şərhçilərinin fikrincə, Oyunların açılış mərasiminin Təşkilat Komitəsi tərəfindən yüksək səviyyədə və səylə hazırlanması gözlənilən hadisə idi və Azərbaycan bütün dünyaya növbəti dəfə nümayiş etdirdi ki, birinci Avropa Oyunları, “Formula 1” Avropa Qran-prisi kimi iri beynəlxalq idman tədbirlərini və digər tədbirləri ən yüksək səviyyədə keçirə bilər. Səudiyyə Ərəbistanının “Ukaz” qəzeti və “okaz.com.sa” saytı “IV Bakı İslam Həmrəyliyi Oyunlarının əfsanəvi açılışı” başlığı adı altında yazı dərc etmişlər. Burada qeyd olunub ki, Azərbaycan Respublikasının dövlət başçısı cənab İlham Əliyev 3 qitədən 54 dövlətin 6000-dən çox idmançısının, bir sıra dövlət və hökumət başçılarının, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd Əl-Osaymin iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunlarının əfsanəvi rəsmi açılışını etmişdir. Məlumatda bildirilmişdir ki, açılış mərasimi Azərbaycanın paytaxtı olan Bakının səmasını nura boyayan atəşfəşanlıqla yekunlaşmışdır. İordaniyanın “Əl-Ray” qəzeti də İslam oyunları, burada iştirak edən İordaniya idmançıları və onların uğurları haqqında geniş yazı dərc etmişdir.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparmış, Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə


Medal Ceremony
Kapital Bank


BEIGI HARCHEGANI Milad AZE
SARI Yunus TUR
DARVISHPOUR Alireza IRI
RAFALOVICH Maksim UZB
120
BAKU 2017
2:00





sevindirərək, yarışları birinci pillədə başa vurublar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olmuşlar. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazılmışdır. Onlar, ümumilikdə, 26 medal – 11 qızıl, 12 gümüş və 3 bürünc əldə etmişlər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da

böyük payı vardır. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn beşinci (21 medal) yerdə qərarlaşıb. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanmışlar. Möhtərəm Prezident, cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri Oyunlara marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdirmişdir.

IV İslam Həmrəyliyi Oyunlarının təntənəli bağlanış mərasimi 22 may 2017-ci il tarixdə Bakı Olimpiya Stadionunda baş tutmuşdur ki, həmin tədbirdə cənab İlham Əliyev iştirak etmişdir. "Bakı-2017"də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla birinci olmuşdur. İdman arenalarında Azərbaycanın dövlət himni 75 dəfə səslənmiş, dövlət bayrağı 162 dəfə qaldırılmışdır. İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti Şahzadə Abdullah Bin Mosaad Bin Əbdüləziz Oyunların təşkilini yüksək qiymətləndirərək qeyd etmişdir ki, bu əlamətdar İslam Həmrəyliyi Oyunları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə, Birinci vitse-prezident, "Bakı-2017"nin Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün olmuşdur.

Beləliklə, Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları həm də ən böyük İslamiada kimi tarixə qovuşmuş, ölkəmizin dünya miqyaslı idman tədbirlərinə ev sahibliyi edə bilməsini bir daha təsdiqləmiş və gələcəkdə bu qəbildən olan tədbirlərin ölkəmizdə keçirilməsinə zəmin yaratmışdır. Bu mötəbər tədbirin yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açmış, Azərbaycanın gücünü və potensialını bütün dünyaya nümayiş etdirmiş, müxtəlif təlimlər vasitəsilə xarici mütəxəssislərlə əməkdaşlıq, birgə layihələrdə iştirak yerli mütəxəssislərimizin formalaşmasına müsbət təsir göstərmişdir. İslam Həmrəyliyi ilə bağlı tədbirlər təkcə "İslam Həmrəyliyi İli" çərçivəsində bu il keçirilmiş tədbirlərlə yekunlaşmır, bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir və bu cür tədbirlərin ölkəmizdə keçirilməsi gələcəkdə də davam etdiriləcəkdir.

